***Azərbaycan Ordusunun ötən il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin parlaq qələbəsi ilə nəticələndi. Bununla da işğal altındakı torpaqlarımız düşməndən təmizləndi.***

# Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində görülən işlər dövlətimizin iqtisadi qüdrətini göstərir



Ermənistanın 30 il ərzində işğalda saxladığı yaşayış məntəqələrimiz vəhşiliyin qurbanı olub, şəhər və kəndlərimiz xarabalığa çevrilib. Bütün infrastruktur yerlə bir edilib.

Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılan Əlaqələndirmə Qərargahı tərəfindən düşməndən təmizlənən ərazilərin yenidən qurulması və bərpası, dağıdılan yaşayış məntəqələrinin baş planlarının hazırlanması, şəhərsalma proseslərinin sistemli şəkildə təşkili ilə bağlı qarşıya qoyulan vəzifələr hazırda uğurla həyata keçirilir, regionun ümumi planının hazırlanması çərçivəsində şəhərlərin, kənd və qəsəbələrin sərhədləri dəqiqləşdirilir, müvafiq ərazi-planlaşdırma sənədləri işlənilir.

Dövlətimizin başçısının 12 avqust 2021-ci il tarixli "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında" fərmanı da Vətən müharibəsində parlaq qələbəmizdən sonra erməni vandallarının xarabazara çevirdikləri yaşayış sahələrimizin bərpası, sosial-iqtisadi dirçəlişi baxımından mühüm önəm daşıyır. Xatırladq ki, həmin fərmanla Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi yaradılır.

Onu da qeyd edək ki, Qarabağda şəhərsalma prinsiplərinin diqqət mərkəzində saxlanılması ilə bərabər, kənd və qəsəbələrin də sistemli şəkildə salınması, ölkə memarlarının və şəhərsalma mütəxəssislərinin işğaldan azad olunan ərazilərdə yenidənqurma proseslərində iştirakının reallaşdırılması məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən keçirilən "Qədim Qarabağın yenilənən siması" adlı müsabiqəyə bu günlərdə yekun vurulub. Müsabiqədə Ağdamın Sarıcalı, Laçının Şəlvə, Cəbrayılın Böyük Mərcanlı, Kəlbəcərin Zar kəndləri, Füzulinin Horadiz və Cəbrayılın Xudafərin qəsəbələri üzrə layihələrin ən yaxşıları müəyyənləşdirilib. Layihələr yaşayış məntəqələrinin mövcud vəziyyətinin təhlili, tarixi kontekstlə əlaqələri, orijinallıq, simvolizm, bütövlük, həmçinin uğurlu və peşəkar bədii-qrafik və memarlıq həlləri, vizual təqdimatlar üzrə qiymətləndirilib.

Bu gün Qarabağın bərpasında prioritet istiqamətlərdən biri də yol infrastrukturunun bərpasıdır. Hazırda Xudafərin–Qubadlı–Laçın, Füzuli–Hadrut, Bərdə–Ağdam, Şükürbəyli–Cəbrayıl–Hadrut, Talış–Tapqaraqoyunlu–Qaşaltı sanatoriyası və Füzulidən Şuşaya – Zəfər yolunun tikintisi sürətlə aparılır.

Zəfər yolunun 2021-ci ilin sentyabrın sonu-oktabrın əvvəlində istifadəyə verilməsi nəzərdə tutulur. Bu yol Hacıqabul–Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrliyindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi, Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır.

Şuşa şəhərinə 2-ci avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 157-ci kilometrliyindən başlayır. Magistralın üzərində körpü və tunellərin tikilməsi nəticəsində Zəfər yolu ilə müqayisədə 20,3 kilometr qısa olacağı, 2024-cü ildə başa çatdırılacağı nəzərdə tutulub.

Kəlbəcər və Laçına çəkilən yollar da mühüm önəm daşıyır. Prezident İlham Əliyev bununla bağlı deyib: "Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər – qış da oktyabr ayında gələcək, – oktyabr ayına qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyükmiqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var".

Xatırladaq ki, Toğana-Kəlbəcər–İstisu, Kəlbəcər–Laçın, Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi də sürətlə aparılır.

Hazırda Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd hissəsinin layihəsi hazırlanır və paralel olaraq tikintisi aparılır. Avtomobil yolunun 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Onu da xatırladaq ki, Qarabağda yol tikintisinə cəlb edilən işçi qüvvəsinin sırasında həm yerli, həm də Türkiyə mütəxəssisləri var. Azad olunan ərazilərdə hazırda Türkiyə şirkətləri 372 kilometr yol və 70 kilometr tunel tikintisi işləri aparırlar. Qeyd olunan ərazilərdə yerli şirkətlər isə 282 kilometr uzunluğunda yol çəkirlər.

Qarabağda Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin icrası da diqqətdə saxlanılır.

Prezidenti İlham Əliyev çıxışlarının birində düşməndən təmizlənən torpaqların "Yaşıl enerji" zonası olacağını bildirərək, deyib: "Əminəm ki, Azərbaycan transformasiyanın nadir təcrübəsini nümayiş etdirərək, Lüksemburqun ərazisindən dörd dəfə böyük olan dağıdılmış ərazini yüksək yaşayış standartlarına malik firavanlıq məkanına çevirəcək".

Əlaqələndirmə Qərargahının nəzarəti ilə bu ilin sonuna qədər azad edilən torpaqlarda – həm Qarabağda, həm Şərqi Zəngəzurda yeni elektrik xətləri, həmçinin ötürücü xətlər çəkiləcək, transformatorlar, yarımstansiyalar qurulacaq, elektrik stansiyaları istifadəyə veriləcək. Eyni zamanda, Kəlbəcər və Laçın rayonlarında məskunlaşan ermənilərin həmin əraziləri möhlətverilmə müddəti başa çatandan sonra tərk edərkən, yandırıb dağıtdıqları 12 su elektrik stansiyası da yenidən bərpa olunacaq. Dövlətimizin başçısının vurğuladığı kimi, bu, əsas məsələdir. Çünki işğaldan azad edilən ərazilərdə energetika sistemi yaradılmasa, heç bir inkişafdan söhbət gedə bilməz. İlin sonuna qədər bu istiqamətdə işlərin yekunlaşdırılması planlaşdırılır. Yalnız bundan sonra "yaşıl enerji" layihəsinin icrası nəzərdə tutulur.

Prezident İlham Əliyev bu il mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, ölkəmizin işğaldan azad edilmiş ərazilərində "Yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılıb.

Bu, dövlətimizin başçısının ölkəmizdə "Yaşıl enerji" zonası yaradılması layihəsinə mühüm önəm verməsinin bariz ifadəsidir. Prezident İlham Əliyev azad olunmuş ərazilərə səfəri zamanı Laçın rayonunun Güləbird kəndində çıxış edərkən bu barədə bildirib: "Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "Yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik".

Dövlətimizin başçısı daha sonra vurğulayıb ki, xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını, həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edə bilərlər.

Bu il aprelin 27-də Prezident İlham Əliyev artıq Zəngilanın 1-ci Ağalı, 2-ci Ağalı, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməlini qoyub. Layihənin icrası, əsasən, yaşayış, istehsal, sosial xidmətlər, "Ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələrini əhatə edən 5 komponent üzrə aparılacaq. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

İşğaldan azad olunmuş ərazilərimizin bərpasında məhz "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının tətbiqinin olduqca böyük əhəmiyyəti var. Bununla, Azərbaycan dövləti bütün dünyaya həyata keçirdiyi siyasətin həm də humanist, sülhsevər, qurucu və yüksək mədəni-əxlaqi mahiyyətini nümayiş etdirir.

Mütəxəssislərin sözlərinə görə, "Ağıllı şəhər" və "Ağıllı kənd" "Ağıllı şəhər"lərin qurulmasında 3D modelləşdirməsinin tətbiqi dizaynerlərə, memarlara və mütəxəssislərə qısa zaman çərçivəsində xüsusi 3D əsaslı proqramlar vasitəsilə "Ağıllı şəhər"in 3D virtual modelini yaratmağa, ərazinin, eləcə də hər bir binanın layihələndirilməsində yarana biləcək səhvlərin qarşısını almağa imkan verir. "Ağıllı şəhər"i 3D əsasında modelləşdirərkən şəhərlərdə əhali artdıqca, ərazinin səmərəli istifadə olunması, torpaq və əhali, mənzil sıxlığı, bina hündürlüyü, mərtəbə sahəsinin nisbəti, bərpa olunan enerji məsələlərinə də xüsusi diqqət yetirilir. Gələcəyin davamlı şəhəri günəş enerjisi qurğuları, mikro şəbəkələr və digər təmiz enerji mənbələrindən istifadə edən unikal şəhər modelidir.

Xatırladaq ki, Azərbaycanın və eləcə də işğaldan azad olunan ərazilərin böyük alternativ enerji potensialı var. Energetika Nazirliyinin hesablamaların görə, ölkəmizdə günəşli günlər il ərzində 2500-3200 saat arasında dəyişir. Bakı və ətraf ərazilərdə ilin orta hesabla 250 günü küləkli olur. Nazirliyin hesablamalarına əsasən, Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı 27 min MVt olaraq dəyərləndirilir. Bunun 23 min MVt-ı günəş, 3 min MVt-ı isə külək enerjisinin payına düşür. Qarabağ bölgəsinin də alternativ enerji potenisalı kifayət qədər yüksəkdir. Nazirliyin qiymətləndirmələrinə görə, işğaldan azad olunan ərazilərimizin günəş enerjisi potensialı 4 min MVt, külək enerjisi potensialı isə 500 MVt-dır. Günəş enerjisi əsasən, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında, külək enerjisi isə Laçın və Kəlbəcər rayonlarında daha yüksək qiymətləndirilir. Azərbaycanda yerli su ehtiyatlarının 25 faizinin Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı əlverişli sayılır.

Qeyd edək ki, bu il iyunun 3-də Energetika Nazirliyi və bp şirkəti arasında Zəngilan–Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsi imzalanıb.

Mütəxəssislər bildirirlər ki, "Ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin ayrı-ayrı komponenetlərin icra olunduğu ölkələr var. Amma bütöv şəkildə "ağıllı" yaşayış konsepsiyasını formalaşdırmış dövlətlər yoxdur. Azərbaycan müasir innovasiyalara əsaslanmış "ağıllı" konsepsiyaları Qarabağ torpaqlarında sınaqdan keçirəcək. Layihənin səmərəliliyi nəzərə alınaraq bundan sonra bütün ölkə ərazisində tətbiqi də mümkün ola bilər. Dünyada ərzaq təhlükəsizliyinin real olduğu şəraitdə istehsalatda müasir texnologiyaların tətbiqi mühüm amildir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***